BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2018*

## ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82**

# SÖZÜN GÜCÜ, QƏLƏMİN QÜDRƏTİ

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***azimova.aida@mail.ru***

*XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri də şəxsiyyəti ilə istedadının birliyini, vəhdətini əks etdirən görkəmli yazıçı, tanınmış alim Mir Cəlal maraqlı yaradıcılıq yolu keçmişdir. Mədəniyyətimizin, sənətimizin inkişaf edib yeni-yeni nailiyyətlərlə zənginləşməsində özünəməxsus mövqeyi olmuşdur. Mahir hekayə ustası və istedadlı romanlar müəllifi kimi şöhrətlənmişdir. Mir Cəlal eyni zamanda görkəmli alim və müəllim kimi də tanınmışdır. Bütün yaradıcılığı boyu o hər üç sahə ilə müntəzəm və ciddi məşğul olmuş, bu sahələrlə yanaşı – əlaqəli inkişaf edərək biri digərini tamamlamışdır.*

*Məqalədə Mir Cəlalın əlli illik səmərəli yaradıcılıq yolundan əhatəli şəkildə bəhs olunur.*

**Açar sözlər:** ədib, müəllif, ədəbiyyat, istedad, Mir Cəlal

XX əsr Azərbaycan ədəbiyyatının bir çox unudulmayan şəxsiyyətləri var ki, zaman keçdikcə onların varlığı daha çox hiss olunur. Şəxsiyyətlə istedadın birliyini, vəhdətini əks etdirən belə sənətkarlardan biri də müasir Azərbaycan ədəbiyyatında fəxri yerlərdən birini tutan görkəmli yazıçı, tanınmış alim və pedaqoq Mir Cəlal Əli oğlu Paşayevdir. Bütün yaradıcılığı boyu o hər üç sahə ilə məşğul olmuşdur. Bu sahələr yanaşı-əlaqəli inkişaf edərək biri digərini tamamlayıb şəxsiləşdirmişdir. Bir çox klassik və müasir sənətkarların yaradıcılıq xüsusiyyətlərinin dərindən öyrənilməsində, ədəbiyyat tariximizə dair ciddi tədqiqat əsərlərinin yazılmasında, elmi-tənqidi fikrimizin düzgün inkişafında onun diqqətəlayiq xidmətləri, yazıçı, alim-müəllim təfəkkürünün vəhdətindən yaranan məntiqli və orijinal mülahizələri olmuşdur.

Mir Cəlal yetmiş illik mənalı insan ömrünün tam yarım əsrini bədii, elmi və pedaqoji yaradıcılığa həsr etmişdir. Bu müddət ərzində o, bütün fəaliyyətində ideallarımıza sədaqət nümunəsi göstərmişdir. Ədib çox gənc yaşlarından 20-ci illərin axırlarından qələmə sarılmış, "Qızıl qələmlər" ittifaqının Gəncə şöbəsində bir şair kimi qarşılanmışdı. Mir Cəlal yazıçılığa nə vaxt və necə başlaması barədə yazır: "1926-1927-ci illərdə pedaqoji texnikumun son sinfində oxuyanda mərkəzi qəzetləri, xüsusən "Gənc işçi"ni müntəzəm mütaliə edir, özüm də arabir məqalələr yazırdım. "Gənc işçi"də rast gəldiyim ədəbiyyat sə-

hifələri məni çox maraqlandırırdı. Mən istədyirdim orada yazam. Bir neçə şeir qaralayıb, poçt ilə göndərdim, cavab çıxmadı...

Bir dəfə Mayakovskinin "Zərbəçi marşı" adlı şeiri əlimə keçdi, onu oxudum və nədənsə tərcümə etmək fikrinə düşdüm... Bir həftə sonra "Zərbəçi marşı" adlı tərcümə şeirim çıxdı. Bu mənim mərkəzi mətbuatda ilk yazım idi (2).

Ədəbi-mədəni hadisələri diqqətlə izləyən, ictimai-siyasi həyatla yaxından maraqlanan Mir Cəlal faydalı yaradıcılıq aparır, məqalə və şeirləri "Yeni fikir" (1926), "Qızıl Gəncə" (1928), "İlk addımlar" (1929) adlı qəzet və məcmuələrdə çap edilir.

Mir Cəlalın bədii istedadı müntəzəm olaraq yazıb-yaratdığı nəsr sahəsində parlamış və o, bu janrda yeni-yeni müvəffəqiyyətlər qazanmışdır.

Mir Cəlal hər şeydən əvvəl, hekayə ustasıdır. Hekayə geniş yayılan və çox oxunan fəal ədəbi janrdır. Dünya ədəbiyyatında N.Qoqol, İ.Turgenev, L.Tolstoy, A.Çexov, M,Qorki, O.Balzak, A.Stendal, K.Monassan, C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi sənətkarlar bu janrın bir sıra klassik nümunələrini yaratmışdır.

Azərbaycan sovet dövrü ədəbiyyatında hekayə janrının inkişafında Mir Cəlalın böyük xidmətləri olmuşdur. Hekayə vasitəsilə yazıçı həyatın müəyyən əhəmiyyətli, konkret hadisə və məsələsini qələmə alır, tipik lövhə, surət və xarakterlər, cəmiyyətin ictimai, fəlsəfi əxlaqi və etik problemlərinə toxunur.

Mir Cəlalın hekayələrinin mövzu, surətlər aləmi, janr xüsuiyyətləri əlvandır. Burada həyatın müxtəlif sahələrindən götürülmüş maraqlı mövzular, əxlaqi-tərbiyəvi məsələlər, ailə-məişət motivləri, dərin mənalı mətləblər, lirik, dramatik, yumoristik və satirik məzmunlu hadisələr öz ifadəsini tapmışdır. "Ədibin "Bostan oğrusu", "Həkim Cinayətov", "İstifadə", "Plovdan sonra", "İclas qurusu", "Anket Anketov", "Xarici naxoşluq", "Mirzə Şəfi" və s. əsərləri satirik-yumoristik üslubu ilə seçilirlər: "Bu hekayələrin hər birində bütöv bir povest üçün bəs edilə biləcək həyat materailı vardır" (1, 290). Lakin yazıçı bu materialı kiçik bir hekayə çərçivəsinə sıxışdıraraq, tənqid hədəfini daha sərrast nişan alır. "Həkim Cinayətov" hekayəsində olduğu kimi "Həkim kamili-səliqə ilə suçəkəni aldı, yazdığı sual vərəqini qurutdu, ağır bir işdən qurtarmış kimi geniş bir nəfəs aldı, stula söykəndi, qollarını boynuna çataraq, bərk gərnəşdi. Stulun cırıltısına qadınlar da gülüşdülər. O, saxta bir ciddiyyət göstərərək, yumruğunu stola vurdu. Onlara acıqlandı, təkrar gülüşməyə başladılar" (3, 18).

Bu kiçik parça ədibin portret hekayələrində tip yaratmaq üsulu ilə tipik şəraitin təsviri haqqında müəyyən təsəvvür doğura bilir.

Ədibin yaradıcılığında sənətin başqa keyfiyyətləri ilə yanaşı, yumor və satira da mühüm yer tutur. Burada mənfilik və insanlara qarşı mübarizədə etibarlı silah rolu oynayan gülüşün mahiyyəti təsvir obyektinin xarakterindən, həyat hadisəsinə, bədii obraza müəllif münasibətindən asılı olaraq dəyişib, yeni məna və xüsusiyyətlərlə zənginləşdirir. Mir Cəlala görə, həqiqi gülüş "həyat, mənəvi varlıq"dır; əsasında ictimai-siyasi məna duran, zəruri, mühüm ictimai bir mətləbi hədəf götürən gülüş "tənqidi xarakter və dərin məzmun daşıma-

lıdır" (4, 4-5).

Yazıçı kəsərli silah olan gülüşdən idealı ifadə etməyin, yeniliyə yol açmağın, hadisə və insanlara münasibəti bildirməyindən mühüm bir vasitə kimi faydalanmışdır.

Mir Cəlalın gülüşə belə əhəmiyyət verdiyi, yaradıcılığı üçün səciyyəvi olan bəzi xüsusiyyətlər ilk hekayəsi "Mirzə"dən başlayaraq özünü aydın göstərir. Hekayəni cəlbedici bir forma əsasında quran müəllif deyir: "İki Mirzə Şəfi var. Birisi bildiyimiz məşhur "Mirzə Şəfi"dir. Hekayədə Mirzə Şəfi ilə maarif şöbə müdiri arasında gedən mükalimə olduqca mənalıdır:

"– Məni Söyüdlü kəndindən götürmüşsünüz?

– Bəli!

– Bəs haraya təyin etmişsiniz?

– Evinizə.

– Axı mən səkkiz ildir müəllim işləyirəm.

– Odur ki, sənə dincəlmək lazımdır. Bəsinizdir çox işləmisiniz.

– Ayrı, məktəbə qoya bilməzsiniz?

– Yox".

Vəzifədən götürülmüş Mirzənin divar dibində dayanmasının təsviri ilə bir daha xatırladılır ki, "belələri işimizə mane törədən, cəmiyyətdə əl-ayağa dolaşan və yoldan kənara atılması zəruri olan bir kötükdür" (14). Ədibin hekayələrində diqqəti cəlb edən cəhətlərdən biri də komik situasiyaların bəzən şüurlu surətdə daha qabarıq şəkildə verilməsidir. Bu cəhəti yazıçının bir çox əsərlərində, xüsusilə "Anket Anketov", "Kəmtərovlar ailəsində" və "Xarici naxoşluq"da daha aydın görmək olar. Fiqurasının pozulacağından qorxan bir qız günlərlə acsusuz qalaraq, özünü üzür, nəticədə bərk xəstələnir. Xarici həkimdən soruşanda ki, bizim qızın xəstəliyi nədir, həkim mənalı tərzdə başını tərpədərək deyir:

– Xarici naxoşluq!

Ədəbiyyatın bütün növlərində yazıb-yaratsa da, o romanları ilə daha böyük şöhrət tapmış, sənətkarlıq bacarığını bütün parlaqlığı və dolğunluğu ilə təkrarsız romanlarında nümayiş etdirə bilmişdir. Tarixi keçmişi, xalqımızın tarixinin mühüm əlamətdar hadisə və qəhrəmanlarını dərindən öyrənib, duyan, sənətkarlıqla əks etdirən ədib roman sahəsində ədəbiyyatımızda özünəməxsus yol açmış, "Dirilən adam" (1934), "Bir gəncin manifesti" (1939), "Yolumuz hayanadır" (1952), "Açıq kitab" (1944), "Yaşıdlarım" (1946), "Təzə şəhər" (1948) əsərləri ilə böyük iz qoymuşdur. Yazıçının bu romanlarını səciyyələndirən, onları oxuculara sevdirən əsas məziyyətlərdən biri Mir Cəlalın mətləbi konkret, yığcam bədii formada, dinamik sujet daxilində ifadə edə bilmək məharətidir. Ədib çox haqlı olaraq, sujetin inkişafını ləngidən, lüzumsuz təfərrüatdan qaçaraq, hadisə və əhvalatın məğzini təşkil edən mətləb və məzmunu ön plana çəkir, fikrini, ideyasını yığcam fabula əsasında axıcı, bəzən ciddi, bəzən isə yumoristik tərzdə oxucularına çatdırır. Mir Cəlalın ayrı-ayrı romanlarında obrazların sayı elə də çox deyildir: Ədib hər bir əsərdə bir neçə surətin taleyini izləyir, onların hər birinin fərdi psixologiyasını açır, mənəvi aləmini yadda

qalan, tutarlı ştrixlərlə göstərməyə nail olur. "Dirilən adam"da Bəbir bəy, Qədir, Qumru; "Bir gəncin manifesti"ndə Mərdan, Bahar, Sona ana, Hacı İbrahim Xəlil, "Açıq kitab"da Vahid, Sadıq kişi, Kərim Gəldiyev, Rübabə; "Yaşıdlar"da Kərimzadə Səlim, Nəriman; "Təzə şəhər"də Yunis və başqaları, "Yolumuz hayanadır"da Sabir, Əntiqə, Bəndalı və qeyriləri məhz bu yolla yaradılmış surətlərdir. Mir Cəlal təkcə görkəmli yazıçı deyil, həm də görkəmli alim və müəllim olmuşdur. Ədib bir alim, tənqidçi və ədəbiyyatşünas kimi də həmişə yüksək məqamda durmuş, özünün heç kəsə bənzəməyən elmi üslubi ilə ədəbi ictimaiyyətin ən qabaqcıl nümayəndələri arasında da ön mövqelərdən birlikdə durmuşdur. Demək olar ki, onun adı ilə bizim ədəbiyyatşünaslığımızda və ədəbi tənqidimizdə müəyyən tədqiq-təhlil üsulu, metodu mövcud olmuşdur. O, ədəbi tənqidi və ədəbiyyatşünaslıq sahəsində gəldiyi zamandan hamıdan fərqli olaraq, sənət və ədəbiyyatın ən çox nəzəri problemləri ilə məşğul olmuşdur. Cəsarətlə demək lazımdır ki, Mir Cəlal 30-cu illərdən başlayaraq müharibədən sonrakı dövrə qədər bizim bədii ədəbiyyatımızda özünə çox dərin kök salan ritorikadan, əbədi-bədii tənqid və ümumən ədəbiyyatşünaslıqda geniş yayılmış, quru, cansız, sosioloji təhlildən həmişə uzaqda durmuş, sənətin spesifikliyini heç zaman unutmamış, bu sahədə uğurla qələm işlətmişdir. Mir Cəlal bədii ədəbiyyatın, bədii yaradıcılığın nəzəri aktual problemləri, sənətkarlıq məsələləri, gülüş ustalığı, metod və üslub məsələləri, forma axtarışları kimi məsələləri qələmə alarkən bütün hallarda öz istədiyinə nail ola bilmişdir.

Ədəbiyyatşünas alim kimi üzərinə düşən mühüm vəzifəni ləyaqətlə yerinə yetirmək üçün Mir Cəlal az əmək sərf etməmişdir. Onun əsası 30-cu illərdən başlanan elmi tədqiqatında orta əsrlər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi M.Füzuli çox görkəmli yer tutur. Düzdür, Mir Cəlal Nizami irsi ilə də məşğul olmuş, xüsusilə "Yeddi gözəl" poemasını nəsrlə tərcümə də etmişdir. "Nizami"nin müsbət surətlər haqqındakı (1939) məqaləsində mətləblə əlaqədar mülahizələrini konkret olaraq "Xəmsə"nin "ən yetkin və mükəmməl" əsərlərindən "Yeddi gözəl"ə əsasən yürütmüş, onunla "Şahnamə" (Firdovsi) arasındakı müəyyən oxşarlıqdan, ciddi fərqlərdən, Nizaminin tarixi fakt, hadisə və şəxsiyyətə münasibətindən, mövzunu işləmə tərzindən, həm ideal hökmdar, həm də sadə insan obrazları yaratmaq təşəbbüslərindən söz açmışdır.

"Məqalələrinin əhəmiyyətini azaltmadan onu da deyək ki, Mir Cəlal Füzuli irsini öyrənmək, Füzuli sənətkarlığını araşdırmaq sahəsində daha geniş fəaliyyət göstərmişdir" (9, 188).

Nadir şeir ustadı "qəlb mühəndisi", "könül mülkünün sultanı" Füzuli haqqında orijinal söz demək, şübhəsiz, çətin bir yaradıcılıq işidir. Bu vəzifənin məsuliyyət və ağırlığını yaxşı duyduğu üçündür ki, Mir Cəlal yazır: "Füzuli sənətinin qüdrətini, miqyasını, məziyyətlərini şərh etmək bir nəfərin, bir elmi məktəbin, hətta bəlkə də bir elmi nəslin işi deyildir. Bu böyük və şərəfli vəzifə ədəbiyyat, sənət, dil, fəlsəfə elmlərinin qarşısında durmaqda və həllini gözləməkdədir".

1940-cı ildə namizədlik dissertasiyası kimi müdafiə etdiyi "Füzuli şeiri-

nin poetik xüsusiyyətləri" adlı əsəri sonralar alim tərəfindən dönə-dönə işlənərək təkmilləşdirilmiş, geniş, əhatəli monoqrafiyaya çevrilərək, indi "Füzuli sənətkarlığı" adı ilə Azərbaycan ədəbiyyatşünaslığının kapital əsəri kimi şöhrət qazanmışdır.

Mir Cəlal ədəbi mirasımızı mənimsəmək, onu tamamilə xalq malı etmək, geniş kütlələrə çatdırmaq vəzifəsinin əhəmiyyətini dərindən dərk edir, alimin söylədiyi kimi "biz indiyə qədər Füzulini haqqı ilə tanıtmaq bir yana qalsın, oxutmaqda da çox az iş görmüşük" (9) – deyə həmin tələbə öz kitabı, habelə sonrakı illərdə apardığı bir sıra başqa tədqiqatları ilə cavab verməyə çalışır.

Bütün bunlarla yanaşı, qeyd edək ki, Mir Cəlal zəngin ədəbiyyatımızın müxtəlif dövləri, mühüm hadisələri, maraqlı simaları haqqında az yazmamışdır. Bununla belə, o daha çox XX əsr Azərbaycan ədəbiyyatının görkəmli mütəxəssisi hesab olunur. Qələmindən bir sıra məzmunlu məqalələr çıxan Mir Cəlal, həmçinin "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin "XX əsr Azərbaycan ədəbiyyatı", "Klassiklər və müasirlər", "Azərbaycanda ədəbi məktəblər" (1905-1917), "Ədəbiyyatşünaslığın əsasları" (P.Xəlilovla birlikdə), "Azərbaycan ədəbiyyatı lüğəti" kitablarının müəllifidir.

Ümumiyyətlə, mürəkkəb ədəbi-tarixi bir dövrün tədqiq-təhlilinə belə xüsusi maraq göstərməsi səbəbsiz deyildir. Bu, hər şeydən əvvəl, böyük müqtədir Mir Cəlalın öz vətəndaş-sənətkar, elmi-tədqiqatçı təbiəti, fərdiyyəti, xüsusiyyəti ilə, öyrəndiyi və əsaslandığı milli realist ənənələrlə, diqqətini həmin dövrə çəkən zəruri şərt və amillərlə bilavasitə əlaqədardır.

Əlbəttə, Mir Cəlalın bu sahə üzrə səmərəli fəaliyyətinin və elmi axtarışlarının əsası olan, XX əsr Azərbaycan ədəbi-mədəni həyatının öyrənilməmiş bir çox aktual məsələlərini ilk dəfə ətraflı işıqlandırmaq məqsədi izləyən doktorluq dissertasiyası xüsusi əhəmiyyətə malikdir.

Mir Cəlal 1947-ci ildə mövzu olaraq yenə də çətin bir mövzuya müraciət etmiş "Ədəbi məktəblər" (XX əsr Azərbaycan ədəbiyyatında) adlı irihəcmli əsərini yazır. Akademik Nərgiz Paşayevanın yazdığı kimi "Bu kitab o dövrün ədəbiyyatının tək faktoloji icmalı yox, həm də bədii-estetik, ideya-estetik ictimai, prinsiplərini və ideallarının sistemli şəkildə elmi-nəzəri təhlili kimi çox qiymətlidir" (5, 203).

Monoqrafiyada 1905-1917-ci illərdə formalaşan və ədəbiyyatımızın sonrakı təkamülündə mühüm rol oynayan ədəbi məktəblərin ideya-estetik platforması, ədəbi metod və üslub özünəməxsusluğu ilk dəfə olaraq sistemli şəkildə təhlil olunmuşdur. Həmçinin mövzu ilə əlaqədar olaraq XX əsr Azərbaycan ədəbiyyatının həm realist, həm də romantik qolunu təşkil edən bir sıra görkəmli sənətkarların yaradıcılığı geniş elmi təhlilini tapmışdır.

Ümumilikdə "bu dövrün ədəbiyyatının inkişaf istiqaməti və xarakteri haqqında müfəssəl təsəvvür yaradılmış, orijinal nəzəri mülahizələr söylənilmişdir" (6, 5).

Mənalı insan ömrünün tam yarım əsrini yazıçılığa, müəllimliyə, təkrarsız tədqiqat əsərlərinə həsr edən Mir Cəlal müəllimin elmi-bədii irsini nəinki bir,

eləcə də bir neçə məqalə ilə şərh edib yekunlaşdırmaq qeyri-mümkündür. Bu böyük, qüdrətli alim, gözəl, pak, səmimi və mehriban insan, ədəbiyyat və sənətin böyük dostu və fədaisi, unudulmaz pedaqoq-müəllim, zəkalı düşüncə sahibi Mir Cəlal müəllim haqqında iri, xüsusi tədqiqat əsərləri yazılsa yenə azdır. Əminik ki, bu iş görüləcək, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində əbədi yaşayan Mir Cəlal müəllimin minnətsiz, təmənnasız xidmətlərini müasir Azərbaycan ədəbiyyatşünaslığı daha sistemli, ardıcıl tədqiq və şərh edəcəkdir.

## ƏDƏBİYYAT


1. Abdullayev C. Mir Cəlal (oçerk). Müasir Azərbaycan ədəbiyyatı. Bakı: BDU, 2007, 499 s.
2. Mir Cəlal. Zərbəçi marşı. Gənc işçi qəzeti, 1930, 16 mart.
3. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
4. Mir Cəlal. Gülüş bədii silah kimi. Bakı: ADU,1968, 210 s.
5. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: BDU, 1958, 275 s.
6. Mir Cəlal. Füzulinin poetik xüsusiyyətləri. Bakı: EA, 1940, 276 s.
7. İsmayılov Y. Mir Cəlalın yaradıcılığı. Bakı: Elm, 1975, 290 s.
8. Mütəllimov T. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (105-1917). Bakı: Nurlan, 2004, 340 s.
9. Paşayeva N. Mir Cəlal. Foto sənədlər, əlyazmalar və epistolyar irs. Bakı: Nurlan, 2014, 380 s.


## СИЛА СЛОВА, МОЩНОСТЬ ПЕРА


**И.С.АЛИЕВА**


## РЕЗЮМЕ


Мир Джалал является одним из известных писателей Азербайджанской прозы XX века. Он автор многочисленных рассказов и романов. Мир Джалал не только знаменитый писатель, также ведущий ученый и педагог. В статье уделяется особое внимание богатому творчеству известного ученого, знаменитого писателя Мир Джалала.

В настоящей статье раскрывается литературное творчество автора многих известных рассказов и ценных романов.



**Ключевые слова:** прозаик, автор, литература, талант, Мир Джалал


## POWER OF WORD, GENIE OF PEN


**I.S.ALIYEVA**


## SUMMARY


One of the most famous figures of the 20th century Azerbaijani literature, Mir Jalal was a prominent writer, well-known scientist who has gone through an interesting way of creativity reflecting the unity of personality and talent. He had a specific position in the development of our culture and art enriching them with new achievements. He is known as an author of prominent novels and a skilfull story maker. Mir Jalal was also known as a prominent scientist and teacher. Throughout his entire career, he was regularly and seriously engaged in all three areas, alongside these areas – he developed them interrelatedly - one completed another. The article thoroughly analyzes Mir Jalal's fifty-year-old productive creativity.



**Key words:** writer, author, literature, talent, Mir Jalal